# "Dionisin şərəfinə"

Səhnə sənətinin yaranma tarixi qədim Yunanıstanda üzümçülük və şərabçılıq allahı sayılan Dionisin şərəfinə oxunan mahnılardan (dualardan) götürülür. Məhz həmin ayinlər nəticəsində ilk faciələr və komediyalar meydana gəlmiş, onminlərlə auditoriyası olan teatrlarda tamaşaya qoyulmuşdur. Tanınmış söz adamı Əsəd Cahangirin yazılarının çoxu səhnə sənətinə həsr edildiyindən və müəllif teatra böyük məhəbbət bəslədiyindən o, özünün məqalələr, müsahibələr, esselərdən ibarət kitabını bu münasibətlə "Dionisin şərəfinə" adlandırmışdır və dünən həmin əsərin Azərbaycan Yazıçılar Birliyində təqdimat mərasimi keçirilmişdir.




Məclisi AYB sədrinin müavini Rəşad Məcid açmış, tədbiri aparmaq üçün sözü AYB-nin katibi İlqar Fəhmiyə vermişdir. İ.Fəhmi vaxtilə gözəl bir ənənəni - müxtəlif sənət adamlarının tez-tez bir yerə toplaşmasını yada salmışdır. O, bildirmişdir ki, təqdimatı keçirilən kitabda səhnə sənətinə verilən yer üstünlük təşkil etsə də, orada incəsənətin digər sahələrində çalışan görkəmli sənət adamlarına da diqqət ayrılmışdır. Bu əsər də bir növ həmin ənənənin davamıdır. Yazılarının hər birində Əsəd Cahangir öz "qəhrəmanları"na bir kulturoloq kimi yanaşır, özünün analitik düşüncə tərzi ilə diqqəti cəlb edir, sənətin alt qatındakı həqiqətləri üzə çıxarır.

Sonra AYB-in katibi Səlim Babullaoğlu, Əsəd Cahangirin qələm dostları və tanınmış səhnə ustaları - Səyyad Aran, Vidadi Qafarov, Vəli Qaraçaylı, Əli Əmirli, Sənubər İsgəndərli, Vaqif Yusifli, Vəfa Zeynalova, Ramiz Qusarçaylı, Rizvan Əhmədli, Narıngül, Güləmail, Nəcibə İlkin, Yusif Nəğməkar və başqaları çıxış edərək təqdim olunan kitabın məziyyətlərindən, müəllifin hələ uşaq yaşlarından səhnəyə məhəbbət bəslədiyindən söhbət açmışlar. Onlar Əsəd Cahangirin teatrşünas ustalığı ilə qələmə aldığı resenziyaları ilə yanaşı portret yazılarındakı özünəməxsus nüansları da qeyd etmiş, bu silsilədən onun tanınmış səhnə ustaları Lütfi Məmmədbəyova həsr etdiyi "İlahi tamaşanın aktyoru", Amaliya Pənahovanın xatirəsinə ehtiram nişanəsi olan "Mahnı dağlarda qalmadı", söz ilə Kamal Xudaverdiyevin və Firəngiz Mütəllimovanın portret cizgilərini tamamlayan "Şöhrət və... unudulmayan aktyor" və s. yazılarını xatırlatmışlar. Qeyd etmişlər ki, onun yaradıcılığında dramaturq Əli Əmirliyə və rejissor Bəhram Osmanova aid yazılar xüsusi ilə diqqəti çəkir.

Məclisdə Əsəd Cahangirə həsr olunmuş şeirlər deyilmiş, onun müsahibə janrında da qələmini ustalıqla sınadığını qeyd edilmişdir. Ümumiyyətlə, nəzərə çatdırılmışdır ki, kitabda musiqi, ifaçılıq sənəti və digər sahələrə də yer ayrılmışdır.

Təqdimat mərasimi Əsəd Cahangirin anadan olmasının 55 və yaradıcılığının 30 illiyinə düşdüyündən məclis iştirakçıları bu münasibətilə də müəllifə xoş sözlərini bildirmişlər.

Sonda Əsəd Cahangir məclisin təşkilatçılarına və təşrif buyuranlara dərin təşəkkürünü bildirmiş, həyatında və yaradıcılığında müəyyən rol oynayan sənət adamlarını xatırlamışdır.

*Atababa İsmayıloğlu*

**Ədəbiyyat qəzeti.- 12 fevral.- 2022- ci il.- S. 25.**